# Qalib dövlət, beynəlxalq nüfuz, güclü iqtisadiyyat



*15 oktyabr 2003-cü ildə ölkədə prezident seçkilərində seçicilərin böyük əksəriyyətinin səsini qazanan Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyev 31 oktyabrda keçirilən andiçmə mərasimində Heydər Əliyev irsinə sadiq qalacağını, ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirmək üçün var qüvvəsi ilə çalışacağını bildirmişdir. 1993-2003-cü illərdə əldə edilən nailiyyətlərin, regionda beynəlxalq səviyyəli irimiqyaslı layihələrin ölkəmizin iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilməsinin məhz ulu öndərin xalqı, dövləti qarşısında əvəzsiz xidmətləri, gərgin əməyinin nəticəsində olduğundan bəhs etmişdir. Müstəqilliyini yenicə qazanmış bir ölkənin dövlətçilik baxımından qısa zaman kəsiyi olan 10 il müddətində beynəlxalq təşkilatlarda uğurlu fəaliyyət göstərməsinin, nüfuzlu qurumlarda təmsil olunmasının, dünya miqyasında möhkəm mövqe tutmasının uzaqgörən, məqsədyönlü siyasət sayəsində mümkün olduğunu vurğulamışdır. Müstəqil Azərbaycanın dünya ölkələri ilə ikitərəfli əlaqələrini, çoxşaxəli regional əməkdaşlığı nəzərə çatdıran dövlət başçısı bu istiqamətdə fəaliyyətin daha da genişləndiriləcəyini, iqtisadi islahatların dərinləşdiriləcəyini, özəl sektorun inkişafı üçün daha əlverişli şəraitin yaradılacağını bildirmişdir.*

> "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".
>
> *31 oktyabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən.*

Beynəlxalq münasibətlərin qurulması və genişləndirilməsinin, bu kontekstdə ölkəmizə investisiya axınına nail olunmasının ulu öndər Heydər Əliyev siyasətinin əsas istiqamətini təşkil etdiyini deyən Prezident Azərbaycanda sərmayə qoyuluşunun çox yüksək səviyyədə olduğunu, adambaşına xarici sərmayənin həcminə görə ölkəmizin keçmiş sovet respublikaları arasında ön sıralarda qərarlaşdığını, hətta bəzi Şərqi Avropa ölkələrini qabaqladığını qeyd etmişdir. Ölkə iqtisadiyyatının inkişafında ulu öndərin neft strategiyasının Azərbaycana böyük sərmayələr gətirdiyini bildirən dövlət başçısı 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə ölkəmizin neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarıldığını, Xəzər dənizinin Azərbaycana aid olan hissəsində xarici şirkətlərlə uğurlu əməkdaşlıq həyata keçirildiyini diqqətə çatdırmışdır. Böyük qaz ehtiyatlarına malik olan "Şahdəniz" yatağında mühüm işlərin aparıldığını, Bakı-Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulduğunu və yaxın illərdə Azərbaycan qazının Avropaya çatdırılacağının, neftdən əldə olunan gəlirlərin xalqın rifahına xidmət edəcəyinin dövlət siyasətinin prioriteti olduğunu vurğulamışdır: "Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir". Dövlət başçısı bildirmişdir ki, bütün bu uğurlar Azərbaycanın gələcəkdə sürətli inkişafına, hərtərəfli tərəqqisinə imkan verəcək.

Bəli, həmin tarixdən etibarən müstəqil ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyərək daha da qüdrətlənmiş, qələbədən-qələbəyə doğru addımlamışdır.

## "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər"

Hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişaf müasir Azərbaycanda hər zaman prioritet olmuş, son 21 il ərzində bu sahədə böyük uğurlar qazanılmışdır. Sabitlik, təhlükəsizlik adasına çevrilən ölkəmiz müstəqilliyini daha da möhkəmləndirmiş, irimiqyaslı layihələrin təşəbbüskarı və fəal icraçısı kimi regionun lider dövlətinə çevrilmişdir. Daxili sabitlik respublikanın inkişafını, iqtisadi dayanıqlılığını təmin etmişdir.

2003-2023-cü illər ölkəmizin tarixində iqtisadi yüksəliş dövrü kimi xarakterizə olunur. Bu illər ərzində həyata keçirilən mühüm əhəmiyyətli islahatların nəticəsində respublikada iqtisadi artım 4,3 faiz təşkil etmişdir ki, bu da dünyada gedən proseslər fonunda və geosiyasi vəziyyətdə müsbət göstəricidir. İqtisadiyyatın şaxələndirilməsi, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması nəticəsində respublikamızın inkişaf tempi daha da sürətlənmiş, neft-qaz hasilatının artımı ilə yanaşı, qeyri-neft sektorunun inkişafında da böyük uğurlar əldə edilmişdir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə imzalan "Əsrin müqaviləsi" əsasında 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyənin Ceyhan limanında istifadəyə verilməsi, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin fəaliyyətə başlaması, "Şahdəniz" qazının ilk hissəsinin Türkiyəyə ixrac olunması ölkə iqtisadiyyatını daha da gücləndirmişdir. "Əsrin müqaviləsi"ndən 20 il sonra - 2014-cü ildə qaz yataqlarının işlənilməsi ilə bağlı ən böyük layihələrdən biri olan Cənub Qaz Dəhlizi (CQD) Xəzər dənizinin Azərbaycan hissəsinin qaz resurslarını birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişdi. Enerji resurslarının şaxələndirilməsində önəmli layihə olan CQD milli iqtisadiyyatın inkişafında mühüm amil olaraq Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyətini artırır, ölkələr arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına, eyni zamanda bölgədə təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi təsir göstərdi.

Dünyanın aparıcı neft, enerji şirkətləri ilə uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatının yaradılması respublikamıza böyük mənfəət qazandırmışdır. 2003-cü ildə andiçmə mərasimində söylədiyi geniş məzmunlu nitqində neft strategiyasını davam etdirməklə Azərbaycanın gələcəkdə qüdrətli dövlətə çevriləcəyini, qısa müddət ərzində ölkəmizin hərtərəfli inkişaf edəcəyini deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatının yüksəlişi təmin edilmişdir. Bu il sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev əsas hədəfin iqtisadiyyatın daha da şaxələndirilməsi və dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsi olduğunu vurğulamış və bildirmişdir ki, xarici borcun Ümumi Daxili Məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Biz istəsək, bir gün ərzində bütün borcu sıfırlaya bilərik: "Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq".

## Milli təhsilin inkişafı əsas prioritetdir

Ölkədə həyata keçirilən inkişaf strategiyası təhsil sahəsini də özündə əks etdirir. Son 21 ildə insan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioriteti olaraq müəyyən edilmişdir. Dövlət başçısının müdrik siyasəti nəticəsində neftdən gələn gəlirlər qeyri-neft sektoruna yönəldilmiş, neft gəlirləri insan kapitalına çevrilmişdir. "İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayə qoyaq", - deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin aparılmasını tələb edən təhsil islahatları uğurla həyata keçirilmişdir. Ölkə başçısının sərəncamları əsasında təhsilin normativ-hüquqi bazası möhkəmləndirilmiş, qabaqcıl texnologiyalara əsaslanan müasir təhsil sisteminin yaradılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası istiqamətində zəruri addımlar atılmış, bu sahə forma və məzmunca zənginləşdirilmiş, yeni təlim texnologiyaları tətbiq olunmuşdur.

2004-cü ildə "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı" haqqında Sərəncam imzalanmış, 2005-ci ildə "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə", 2005-2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə inkişaf proqramı" təsdiqlənmişdi. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi təhsil tariximizdə əhəmiyyətli hadisə kimi qəbul edilmişdir. Ölkə başçısının "Ümumtəhsil məktəblərinin dərsliklə təminatı proqramı (2006-2015-ci illər)", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkisaf Proqramı (2005-2009-cu illər)", "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" haqqında fərman və sərəncamları milli təhsilimizin inkişafında mühüm rol oynamışdır. "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu davamı olaraq "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsində də əsas məqsəd sabahımızın etibarlı təminatçısı olan gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaq və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Dövlət başçısının 2024-cü il 12 avqust tarixli "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncama əsasən proqramın 2028-ci ilədək uzadılması ulu öndərin milli təhsil siyasəti ənənələrinə varisliyinin uğurla davam etdirildiyinin bariz nümunəsidir.

2003-cü ildən etibarən təxminən 4 minə yaxın məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir. Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi, dərsliklə təminatın yaxşılaşdırılması, ucqar kənd məktəblərinin pedaqoji kadr təminatı, məktəbəqədər və peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması məqsədilə mühüm layihələr reallaşdırılmış, milli təhsil sisteminin beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək istiqamətində vacib tədbirlər görülmüşdür. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoq heyətinin motivasiyası diqqətdə saxlanılmış, onlar arasında aparılan müsabiqələr və müəllimlərin təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlər, müəllimlərin əməkhaqlarının son illərdə 2,4 dəfə artırılması ümumitəhsil məktəblərində təhsil keyfiyyətinə müsbət təsir göstərmişdir.

## Sosial-iqtisadi inkişafın davamlılığı təmin olunmuşdur

Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş ölkəmizdə regionların təbii və iqtisadi potensialından səmərəli istifadə, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun artırılması, ölkədə yoxsulluq səviyyəsinin azaldılması dövlət siyasətinin əsasını təşkil etmişdir. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq, bu sahədə köklü dəyişikliklər aparılmış, uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlılığını gücləndirmişdir. Dövlət başçısının "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanına əsasən kiçik və orta sahibkarlığı inkişaf etdirməklə yoxsulluq səviyyəsinin aşağı olması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, ərzaq təhlükəsizliyinin təmin olunması, təhsilin səviyyəsinin yüksəldilməsi, enerji təhlükəsizliyi, ekoloji problemlərin həlli, ölkədə işsizliyin azaldılması və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına yönəldilmişdir. "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda bu illərdə respublikanın rayonlarında iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri göstərilmişdir. İqtisadiyyatın ayrı-ayrı sahələrini inkişaf etdirmək, istehsalı şaxələndirmək, ixracyönümlü məhsul istehsalını stimullaşdırmaq, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşması üçün yerli sahibkarlığa geniş imkanlar yaratmaq, məşğulluq səviyyəsini artırmaq və bütün bunların fonunda ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaq poqramın əsas məqsədi olaraq müəyyənləşdirilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafı təmin edilmiş, infrastruktur təminatı yaxşılaşdırılmış, sahibkarlıq mühiti formalaşmış, iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması əvvəlki illərlə müqayisədə daha da artmışdır. Ölkənin ixrac potensialı yüksəlmiş, regionlarda müasir tipli infrastruktur obyektlərinin sayı çoxalmış, əhalinin məşğulluğunun artırılması və yoxsulluq səviyyəsinin aşağı düşməsində mühüm nəticələr əldə olunmuşdur. Regionlardakı mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, kənd təsərrüfatı məhsullarının emal müəssisələrinin bərpası və aqrar islahatlar uğurla başa çatdırılmışdır.

Regionların inkişafında məqsədyönlü siyasətin davamı olaraq Azərbaycan Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə imzalanmış "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası zamanı ölkə iqtisadiyyatında orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin stabil saxlanılması, vergi və gömrük dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi, taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi əsas məsələlər olaraq diqqət mərkəzində saxlanılmışdır. Ümumi Daxili Məhsulda qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisi yüksəldilmiş, aqrar sektor inkişaf etdirilmiş, regional iqtisadi əlaqələr genişləndirilmiş, sahibkarlıq fəaliyyəti üçün daha əlverişli vergi mühiti yaradılmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda regionların təbii resurslarından səmərəli istifadə, yerlərdə yeni innovasiyalara əsaslanan məhsul və xidmət istehsalı sahələrinin dəyər zəncirinin bütün həlqələri üzrə inkişaf etdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi ilə "yaşıl iqtisadiyyat"ın inkişafı üçün münbit şəraitin yaradılması əsas götürülmüşdür. Proqram çərçivəsində ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da dayanıqlı inkişafı, qeyri-neft sektoru üzrə ixrac həcminin artımı, regionlarda, o cümlədən kənd yerlərində əhalinin məşğulluq və gəlir əldəetmə imkanlarının, sosial rifah halının yüksəldilməsi və bütün bunların fonunda regionların davamlı, tarazlı inkişafının təmin olunması ardıcıl olaraq həyata keçirilmişdir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda iqtisadi artımın yeni keyfiyyət amilləri əsasında formalaşdırılması, prioritet elan olunan sahələrdə artım tempinin sürətləndirilməsi və dayanıqlılığın təmin olunması nəzərdə tutulmuşdur. İnsan kapitalının davamlı inkişafı, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistemin yaradılması, ölkənin "yaşıl enerji" məkanına çevrilməsi, ətraf mühitin mühafizəsi əsas hədəflərdir. Ötən müddət ərzində həyata keçirilən iqtisadi islahatlar ölkədə makroiqtisadi sabitliyə, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş, əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır ki, bu da ölkə vətəndaşlarının ədalətli və əhatəli sosial müdafiəsinin yüksək səviyyədə təmin olunmasına hesablanmışdır.

## Güc, qüdrət, qəhrəmanlıq simvolu olan Azərbaycan Ordusu

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı islahatlar Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ilk günlərindən dövlət siyasətinin əsas istiqamətini təşkil etmişdir. Ümummilli liderin qarşıdakı onilliklər üçün müəyyənləşdirdiyi inkişaf strategiyası uğurla davam etdirilmiş, uzaqgörənliklə həyata keçirilən siyasət sayəsində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü, qüdrətli ordu yaradılmışdır. Dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasında əsas amil olan Azərbaycan Ordusu dünya hərb elminin prinsipləri əsasında formalaşdırılmış, yüksək döyüş hazırlığına malik silahlı qüvvələr sırasında qərarlaşmışdır. Ulu öndərin "Bizim ordumuz, Silahlı Qüvvələrimiz torpaqlarımıza hücum edənlərin qarşısını almağa hər an, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır" arzusu Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük məharətlə yerinə yetirilmişdir. Ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Silahlı Qüvələrinin maddi-texniki təminatı yaxşılaşdırılmış, ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanılmış, döyüş qabiliyyəti artırılmışdır. Bu gün milli ordumuzun arsenalında hərbi gücümüzü nümayiş etdirən yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, döyüş təyyarələri, hərbi və nəqliyyat helikopterləri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri mövcuddur. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinin istehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıqların quraşdırılması, 2200-dən çox müxtəlif təyinatlı dəzgah, 10 minlərlə cihaz, alət və tərtibatlar alınaraq silah-sursat və hərbi texnika istehsalı üçün müəssisələrə verilməsi bu istiqamətdə görülən işlərin yalnız bir hissəsidir. Azərbaycanın dünyada piyadaların özünümüdafiə və düşməni məhvetmə vasitələrindən olan kiçik və ortaçaplı atıcı silahlar istehsal edən azsaylı ölkələrdən biri olmaqla müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi tanınması bunu bir daha təsdiq edir. "Biz güclü hərbi sənaye yaradırıq, eyni zamanda böyük həcmdə hərbi texnika, silah, sursat alırıq və alacağıq. Mən hələ hava hücumuna qarşı silahlardan danışmıram, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri, müxtəlif silahlar, döyüş aparmaq üçün lazım olan bütün müasir ləvazimatlar alınır və alınacaqdır", - deyən Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusunun bu gün nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstəricisi əsasında hazırladığı hesabatda Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alması hər bir azərbaycanlının fəxarəti, qürurudur.

Respublikaya rəhbərliyinin ilk vaxtlarından etibarən müasir ordu quruculuğu sahəsində mühüm işlər həyata keçirən Prezident İlham Əliyevin milli ordunun formalaşdırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi məsələsində prinspial mövqeyi sayəsində Azərbaycan Ordusu yenidən yaradılmışdır. Bu, beynəlxalq hüquq çərçivəsində tanınan ərazi bütövlüyümüzün bərpası uğrunda başlanan 44 günlük Vətən müharibəsində öz təsdiqini tapdı, əzəli torpaqlarımızın işğalına son qoyuldu. Rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, şücaəti, son dərəcə müasir hərbi potensialı düşmən üzərində möhtəşəm Zəfərimizi şərtləndirdi. Azərbaycan xalqının həmrəyliyi, qalibiyyət ruhu, yenilməzliyi, Ali Baş Komandanın ətrafında sıx birləşməsi, dəmir yumruq kimi möhkəm xalq-iqtidar birliyi xalqımızın mənliyini, kimliyini özünə qaytardı. İkinci Qarabağ müharibəsində torpaqlarını işğaldan azad edərək erməni faşizminə son qoyan yenilməz Azərbaycan Ordusunun qəhrəmanlığı dillərdə dastana döndü.

Ərazi bütövlüyü və suverenliyini öz gücü, potensialı hesabına bərpa edən Azərbaycanla bu gün hesablaşır, Prezident İlham Əliyevin verdiyi qərarlara, irəli sürdüyü təşəbbüslərə beynəlxalq aləmdə hörmətlə yanaşırlar. Yenilməz ordu, güclü iqtisadiyyat və bütün bunların fonunda həyata keçirilən müstəqil, müdrik siyasət Azərbaycanı daha da gücləndirir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**